***Töhfə Talış qızı Hüseynova***
*"Tunc və erkən dəmir dövrü" şöbəsi*
E-mail: nuray-fuadqizi@mail.ru

# KÜP QƏBİRLƏR HAQQINDA

**Açar sözlər:** küp qəbir, dəfn adəti, qəbristanlıq, maddi mədəniyyət, Mil düzü, Babazanlı

**Ключевые слова:** кувшинные погребения, погребальный обряд, могильник, материальная культура, Мильская степь, Бабазанлы

**Key words:** jar burials, burial traditions, graveyard, material culture (artefact), Mil plain, Babazanly

Azərbaycan ərazisindəki qədim abidələrin maddi mədəniyyətinin tədqiqində yaşayış yerləri ilə yanaşı qəbir abidələrinin tədqiqi də mühüm əhəmiyyət kəsb edir. Çünki hər bir xalqın qədim tarixinin öyrənilməsində qəbirlərdən tapılmış zəngin maddi mədəniyyət nümunələri böyük əhəmiyyət kəsb edir. Qədim qəbristanlıqlar adətən yaşayış yerlərinin yaxınlığında salınmışdır. Arxeoloji qazıntılar zamanı yaşayış yerlərinin özlərində də qəbristanlığın varlığı məlum olmuşdur. Adət-ənənə dövründən asılı olaraq qədim qəbirlərin içərisinə ölmüş adamla birlikdə onun vardövləti də qoyulurdu. Strabon yazır ki, albanlar ölü ilə birlikdə bütün varidatlarını da basdırırdılar. Ona görə də onların övladları kasıb yaşayırdılar (1, səh. 477). Azərbaycan ərazisində müxtəlif növ qədim qəbir tipləri vardır ki, bunlardan küp qəbirləri haqqında geniş məlumat veriləcəkdir.

Küp qəbirlər Azərbaycan ərazisində geniş yayılmış, xüsusi arxeoloji mədəniyyət kimi qəbul edilmişdir. Bu mədəniyyətin tədqiqi ilə əlaqədar çoxsaylı ekspedisiyalar təşkil olunmuşdur.

Küpdə dəfn etmə adəti olduqca qədimdir. Hələ e.ə. II minillikdə Kiçik Asiyada yaşamış xetlər ölülərini iki küpdə basdırmışlar. Bu adət şumerlər və Fələstində də mövcud olmuşdur. Bu adət Cənubi Qafqazda da mövcud olmuşdur. Azərbaycanda iki küpdə ölü basdırma adətinə cənub rayonlarında təsadüf edilmişdir. İstər iki, istərsə də bir küpdə ölü basdırılmış küp qəbirlərə ən çox Azərbaycanda rast gəlinmişdir. Müqayisəli şəkildə götürüldükdə isə küp qəbirlərinin ən böyük kolleksiyası Azərbaycandadır.

Bu mədəniyyətin izlərinə hələ XIX əsrdən təsadüf olunmuşdur. Bu barədə ilk məlumatı Emil Resler vermişdir (2, səh. 158). Ancaq o tədqiqat işi aparmayıb. Azərbaycanda küp qəbirlərinin tədqiqinə 1927-ci ildə başlanmışdır. Həmin dövrdə V.M.Sısoyev, İ.İ.Meşaninov, Y.A.Poxomov və başqaları tərəfindən Azərbaycan ərazisində bir neçə küp qəbiri qeydə alınmış və qismən öyrənilmişdir. Tədqiqat nəticəsində üzə çıxarılmış küp qəbirlərinin içərisində adətən bir skelet olur. Lakin bəzilərində isə ölülərin cüt-cüt basdırılmasına da təsadüf edilmişdir.

Küplərdə dəfn etmə adətinin bir neçə xarakterik cəhətləri də izlənilmişdir ki, bu cəhətlər ayrı-ayrılıqda özünəməxsus adət-ənənələrlə bağlı olmuşdur. Azərbaycanda küp qəbirlərinin ilk məskunlaşması Mil düzündə olmuşdur. Qədim Şərq ölkələrinin inkişaf etmiş mədəniyyətinin yayılmasında mühüm rol oynayan antik dövr ticarət yollarının birinin məhz Mil-Muğan düzlərindən keçməsi həmin ərazidə öz təsirini göstərməli idi. Həmin ərazidə öz növbəsində mütərəqqi mədəniyyətin qabaqcıl üsullarının mənimsənilməsində biganə qala bilməzdi.

Küp qəbirlərinin öyrənilməsi ilə əlaqədar görkəmli alim, arxeoloq və etnoqraf Ə.K.Ələkbərov Mil düzündə tədqiqat işinə başlamış və Qalatəpə şəhər yeri xarabalıqlarında qazıntı işləri aparmışdır. O, Azərbaycanda küp qəbirlərinin mənşəyi, mənsubiyyəti, Zaqafqaziyaya yayılması yolları, habelə onun xronoloji çərçivəsini təqribən müəyyənləşdirmiş, ətraflı və düzgün nəticələr çıxarmışdır. Küp qəbirləri aşkar edildiyi yerlərdəki toponimiya ilə qədim alban tayfalarının biri olan qarqarların adı uyğunlaşdırılır (3,

səh. 34). Bu mülahizənin həqiqətə uyğunluğunu təsdiq etmək çətin olsa da hər halda bu tip abidələr albanlar yaşayan ərazidə geniş yayılmışdır. Onların avadanlıqları isə alban məişəti üçün də qismən səciyyəvidir. Belə ki, bu adətin mənimsənilməsini təkcə bir tayfanın adı ilə bağlamaq azdır. Təsadüfi deyildir ki, küp qəbirlərin ilk məskunlaşma ərazisi də məhz Mil düzü sayılır. Mil düzü küp qəbirlərindən çıxmış avadanlıqlar, Azərbaycanın digər ərazilərindəki küp qəbirlərin avadanlıqları ilə eyni dövrə aid edilir. Məsələn Naxçıvan boyalı qabları və daş qutu qəbirlərin avadanlığı ilə müqayisədə eyni dövrün məhsulu kimi verilir. Qeyd etməliyik ki, Mil düzü küp qəbirləri adı çəkilən abidələrlə həmdövr olmasa da, onların ardıcıl davamı kimi inkişaf etmişdir.

Görkəmli alim Ə.K.Ələkbərov küp qəbirlərinin meydana gəlməsini daş qutu qəbirlərinin sıradan çıxması, yəni onları əvəz etməsi ilə bağlayır (4, səh. 33). Bu cür dəyişiklik və dini adətin cənubdan yayılmasına gəldikdə isə onda bu dəyişiklik, dövrün güclü məfkurəsini ifadə edən müəyyən ictimai qüvvənin təcəssümü olmalıdır. Deməli küp qəbirlərin Yaxın Şərq, İran, Orta Asiyada geniş yayıldığı və dövrünə görə hakim mövqe tutan zərdüştiliyin təsiri nəticəsində yarandığı qənaətinə gəlinir və həmin dini ideologiya insanların mənəvi və maddi mədəniyyətində də dərin iz buraxmışdır. Lakin bu dini məfkurənin yayıldığı yerlərdə küp qəbirlər heç də eyni formada olmamışdır və zaman, məkan daxilində dəyişikliklərə uğramışdır.

Küp qəbirlərini Azərbaycanda meydana gəlməsi və yayılması haqqında daha geniş və düzgün nəticə çıxarmaq üçün Mil düzündə ardıcıl ekspedisiyalar təşkil olunmuşdur. 1973-1974-cü illərdə F.L.Osmanov tərəfindən Mil düzündə arxeoloji qazıntı işləri aparılmışdır (5, səh. 69-95). O, Ağcabədi rayonu ərazisindəki Qaraköbər, Qaratəpə və digər qədim abidələrdə bir neçə küp qəbri aşkar edərək tədqiqat işi aparmışdır. Küp qəbirlərdən əldə edilmiş müxtəlif növ maddi mədəniyyət qalıqları, abidənin dövrü və əhalinin məişəti haqqında geniş təsəvvür yaratmışdır. Həm də həmin küp qəbirlərinin xaricində və içərisində qoyulmuş avadanlıqların daha qədim formalarının olması Azərbaycanda bu tip qəbirlərin ilk forması hesab etməyə imkan verir. Eyni zamanda burada davamlı, coşqun həyat olduğundan xəbər verir. Bu ərazidə son bir neçə il ərzində aparılan tədqiqat işləri nəticəsində daha geniş nailiyyətlər əldə olunmuşdur. 2006-2007-ci illərdən bölgəyə ezam olunan Mil-Qarabağ arxeoloji dəstə Ağcabədi rayonu ərazisindəki Qalatəpə qədim yaşayış yerində arxeoloji qazıntı işləri aparmışdır. Qazıntı işləri nəticəsində əldə olunmuş maddi dəlillər Qalatəpənin Qafqaz Albaniyasının antik dövr əsas şəhərlərindən birinin qalıqları olduğu müəyyənləşdirmişdir (6, səh. 187-192). Qalatəpə şəhər yerindən bir qədər aralıda aşkar edilmiş küp qəbirləri və onların içərisindən qoyulmuş zəngin avadanlıqlar bunu bir daha təsdiqləyir. Küp qəbirlərin məskənlərindən biri də Mingəçeviri saymaq olar. Mingəçevir arxeoloji obyekt kimi qiymətlidir. Burada qədim mədəni laylarda təbəqələşmənin maddi mədəniyyət qalıqları saxlanılır ki, bunlardan ən böyüyü küp qəbirləri kimi arxeoloji mədəniyyətdir (7, səh. 5-14). Mingəçevirdən aşkar olunmuş küp qəbirlərinin avadanlıqları çox zəngindir. Baxmayaraq ki, Azərbaycanın cənub hissəsindəki küp qəbirlər daha qədimdir.

Yuxarıda qeyd etdiyimiz kimi küp qəbirlərə Azərbaycanın hər yerində təsadüf olunmuşdur. Lakin Azərbaycanda tədqiq edilmiş küp qəbirlərinin daha geniş şərhinə çalışaraq, yeri gəldikcə digər ərazilərdəki küp qəbirləri mədəniyyəti haqqında məlumat verməyi məqsədəuyğun hesab edirəm.

Şirvan bölgəsində aparılan arxeoloji tədqiqatlar zamanı müxtəlif vaxtlarda küp qəbirləri mədəniyyətinə aid xeyli abidə aşkar edilmişdir (İsmayıllı, Şamaxı, Ağsu və s.).

İsmayıllı rayonu ərazisində küp qəbirlərin varlığı ilk dəfə 1933-cü ildə Y.A.Paxomov tərəfindən müəyyənləşdirilmişdir (8, səh. 8-21). Keçən əsrin ortalarından başlayaraq Azərbaycan arxeoloqları Şirvan bölgəsində geniş tədqiqat işləri aparılmış və xeyli küp qəbri aşkar etmişlər.

1964-cü ildə İsmayıllı rayonu ərazisindəki Qalagah, Mollaisaqlı yaşayış yerində bir

neçə küp qəbiri aşkar edilərək öyrənilmişdir (9, səh. 4-6). Mollaisaqlı qazıntıları zamanı aşkar olunmuş küp qəbiri daha çox diqqət çəkir. Burada xarakterik cəhət ondan ibarətdir ki, qəbir boyu qazılmış çuxurlar və onların içərisində od izlərinə rast gəlinmişdir. Görünür küpdə dəfn zamanı həmin çuxurlarda od yandırılması müəyyən bir adət və dini ayini icra etmişlər. Belə dini adətə Mingəçevir küp qəbirlərində də təsadüf edilmişdir (10, səh. 78).

Şamaxı rayonu ərazisindəki qədim abidələrdə küp qəbirlər hələ 30-cu illərdə əcnəbi arxeoloqlar tərəfindən üzə çıxarılmışdır (Y.A.Paxomov).

Ötən əsrin 50-ci illərindən Şamaxıda bir neçə istiqamətdə arxeoloji qazıntı işləri aparılmış, müxtəlif növ maddi mədəniyyət nümunələri əldə edilmişdir. Həmin ərazinin Şərgah kəndi yaxınlığında tədqiqat işi aparılarkən bir neçə küp qəbiri aşkar edilərək öyrənilmişdir (11, səh. 114-115). Şamaxıda arxeoloji tədqiqatlar ardıcıl olaraq davam etdirilir.

Son bir neçə ildə ölkəmiz ərazisində ardıcıl olaraq aparılan arxeoloji tədqiqat işləri zamanı şəhər tipli yeni yaşayış məskənləri və xeyli küp qəbirləri aşkar edilərək tədqiq edilmişdir.

Cəlilabad rayonu ərazisindəki qədim abidələrdə davamlı olaraq aparılan son arxeoloji qazıntı işləri nəticəsində maddi mədəniyyət nümunələri ilə zəngin 30-a yaxın küp qəbiri üzə çıxarılaraq tədqiq olunmuşdur (12, səh. 170-177). Buradan tapılmış küp qəbirlərinin bəziləri daha çox diqqət çəkir. Küp qəbirlərin birinin içərisinə qoyulmuş ölü başı yuxarı yox aşağı, yəni küpün dibinə qoyulmuşdur. Müəllifin fikrincə adam əvvəlcədən həmin formada küpə qoyulmuşdur.

Goranboy rayonu ərazisində son illər aparılan arxeoloji qazıntı işləri zamanı bir neçə küp qəbiri aşkar edilərək tədqiq edilmişdir (13, səh. 70-80) (Qaraqucaq kəndi). İsmayıllı rayonu ərazisində arxeoloji qazıntı işləri ardıcıl olaraq davam etdirilərək bir neçə yeni abidələr tədqiq edilmişdir. Bunlardan biri adı çəkilən ərazinin yaxınlığındakı Çərmədil məzarlığıdır (14, səh. 7-18). Məzarlığın müxtəlif qəbir tipləri ilə yanaşı 10-a yaxın küp qəbiri açılaraq tədqiq edilmişdir. Buradakı küp qəbirlərin əksəriyyətində yaşlı adamların dəfn olduğu bildirilir. Adı çəkilən məzarlıqdakı küp qəbirlərin hamısı qırmızı rəngdə olmuş və onların bəzilərinin aşağı hissəsində kiçik deşik açılmışdır. Ehtimal olunur ki, bu cür deşiklərin açılması hər hansı bir dini inancdan irəli gəlir. Dəfn küplərinə bu cür deşiklərin açılmasına Azərbaycan ərazisində aşkar edilib öyrənilmiş digər küp qəbirlərdə də rast gəlinmişdir.

Salyan rayonu ərazisində keçən əsrin 60-70-ci illərində kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, bir neçə şəhər tipli yaşayış məskəni və qəbir abidələrinin yerləri müəyyənləşdirilmişdir. Salyan rayonu ərazisində son bir neçə il ərzində ardıcıl olaraq aparılan arxeoloji qazıntı işləri nəticəsində xeyli iş görülmüş, yüksək nailiyyətlər əldə edilmişdir.

2011-ci ildə arxeoloq Arif Məmmədovun rəhbərliyi ilə Salyan rayonu ərazisinə göndərilmiş arxeoloji dəstə xeyli iş görülərək, qədim yaşayış yerləri və müxtəlif qəbir abidələrini aşkar edərək tədqiq etmişdir.

Bölgədəki Babazanlı qədim yaşayış məskəni və küp qəbirləri daha çox fərqlənərək diqqəti cəlb edir. Yəni küp qəbirlərinə aid maddi qalıqlar, Salyan ərazisindəki abidələrin qədimliliyi, orada yaşamış sakinlərin həyat tərzindən xəbər verir. Salyan küp qəbirləri Babazanlı dağında geniş bir sahəni əhatə edir və müxtəlif dövrlərə aiddir.

Arxeoloji qazıntılar ilk insan məskənlərindən birinin bu bölgədə yarandığını söyləməyə imkan verir (15, səh. 12-25).

Yuxarıda qeyd edildiyi kimi alimlər küp qəbirləri haqqında uzun illər müxtəlif mülahizələr irəli sürmüş və öz fikirlərini bildirmişlər.

Küp qəbirlərində diqqəti cəlb edən əsas əlamətlərdən biri onlarda bir sıra xüsusiyyətlərin olmasına baxmayaraq, bu adətin icrasında müəyyən bir qanunauyğunluqlar vardır.

Küp qəbirləri mədəniyyəti Azərbaycan ərazisində eramızın VIII əsrinədək davam etmişdir.

## ƏDƏBİYYAT

1. Страбон. География, КН IXX гл. IV, 8 səh. 503, Перевод Г.А.Страгановекого. M., 1964, səh. 477.
2. Е.Реслер Отчеты о раскопках в Шушинском уезде за 1895 год. ОАК, СПб, 1897, səh. 158.
3. А.К.Алекперов. Кувшинные погребения в Азербайджанской ССР. Исследование по археологии и этнографии Азербайджана, Баку, 1960, səh. 34.
4. Yenə orada, səh. 33.
5. F.L.Osmanov. Azərbaycanda küp qəbirlərinin meydana gəlməsi və yayılması məsələsinə dair (Mil düzündə son arxeoloji tədqiqatlar əsasında). Azərbaycanın maddi mədəniyyəti. X cild, Bakı – Elm, 1987, səh. 69-95.
6. Qalatəpədə şəhər yeri və nekropolunda arxeoloji tədqiqatlar. T.Əliyev, F.Babayev, T.Hüseynova, V.Əliyev. Azərbaycanda arxeoloji tədqiqatlar. 2009-cu il Bakı 2010, səh. 187-192.
7. S.M.Qazıyev. Mingəçevir küp qəbirləri albomu. Bakı, 1960, səh. 5-14.
8. Й.А.Пахомов и М.В.Бахмутова. Дневник по раскопкам кувшинных погребений с 3 по 21 фпреля 1938 г. Азерб ССР ЕА. Т.И.Е.Алиев № 760, səh. 8-21.
9. F.L.Osmanov. İsmayıllı rayonu ərazisində 1964-cü il arxeoloji tədqiqat işlərinin hesabatı. Azərb SSR EA Tarix İnstitutunun elmi arxivi № 5779, səh. 4-6.
10. S.M.Qazıyev. Mingəçevirdə arxeoloji yadigarlar. AMM, I c., Bakı 1989, s. 78.
11. А.Б.Нуриев. Новые данные о датировке культуры кувшинных погребений Азербайджана, “1964-cü ildə SSRİ-də arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş sessiyanın materiallarının tezisləri”. Bakı, 1965, səh. 114-115.
12. Cəlilabadda arxeoloji tədqiqatlar. A.İ.Ələkbərov, A.M.Mirabdullayev, T.H.Əzizov. Azərbaycanda arxeoloji tədqiqatlar 2011. Bakı 2012, səh. 170-177.
13. Naftalan-Goranboy arxeoloji ekspedisiyasının apardığı arxeoloji tədqiqatlar 2011 (Goranboy rayonu). M.M.Hüseynov. Bakı 2012, səh. 70-80.
14. Çərmədil nekropolu. Cəlilov Bəxtiyar, Quliyev Akif, Hüseynov Müzəffər. Bakı 2013, səh.
15. Məmmədov A.M. Salyan antik və orta əsr abidələri. Salyanın Tarixi, Arxeologiyası, Etnoqrafiyası və Memarlığı. Elmi praktik konfrans 28-29 dekabr 2011-ci il, səh. 12-25.

***Тохфа Талыш кызы Гусейнова***

## О КУВШИННЫХ ПОГРЕБЕНИЯХ

### *РЕЗЮМЕ*

Статья посвящена культуре кувшинных погребений. Автор дает информацию о происхождении и о начальном ареале распространения кувшинных погребений.

В статье рассказывается о характерных особенностях кувшинных погребений, а так же об их общности, об их изменениях со временем.

В статье также говориться о разногласиях исследователей кувшинных погребений. Отмечается о надобности проведения дальнейших исследований.

В Азербайджане культура кувшинного погребения продолжалось до VIII века н.э.

***Tohfa Talish gizi Husseinova***

## ABOUT THE JAR BURIALS

### *SUMMARY*

The article is devoted to the culture of jar burials. The author provides with the information on the origin and initial area of spread of jar burials.

In the article is dealt with specific features of jar burials, as well as their community.

The article also says about the differences researchers pitcher burials. Notes about the need for further research.

Azerbaijan Culture amphora burials continued until the VIII century BC.